# Dəmir yolunun inkişafında yeni mərhələ



***Bu gün Azərbaycanın sosial-iqtisadi həyatının bütün sahələrində olduğu kimi, nəqliyyat sektorunda da irihəcmli layihələr reallaşdırılır, respublikamız beynəlxalq nəqliyyat dəhlizlərinin formalaşması prosesində fəal iştirak edir, eləcə də ölkənin tranzit potensialının artırılması istiqamətində mühüm addımlar atılır. Bütün bunlar barədə Bakı yük stansiyası rəisinin müavini Vaqif Əliyev söhbət zamanı dedi:***

– Azərbaycan Prezidenti İlham Əliyevin dəmir yolunun yenilənməsi ilə bağlı qarşıya qoyduğu vəzifələr “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin (QSC) sədri Cavid Qurbanovun bu quruma rəhbər təyin olunmasından ötən dövr ərzində yüksək keyfiyyətlə yerinə yetirilir. Enerji təchizatının sabit cərəyandan dəyişən cərəyana keçirilməsi, yol təsərrüfatının sağlamlaşdırılması, lokomotiv və vaqon parkının yenilənməsi və digər mühüm tədbirlər beynəlxalq standartlara uyğun icra edilir. Yük daşımalarına olan tələbatın ödənilməsi, xidmət səviyyəsinin müasir tələblərə çatdırılması, əlavə yüklərin cəlbi, habelə daşınan yüklərin mənzil başına təhlükəsiz və vaxtında çatdırılması üçün müasir texniki vasitələrin müasirləşdirilməsi uğurla gerçəkləşdirilir.

Fikrimin təsdiqi üçün diqqəti konkret misallara yönəltmək istərdim. Belə ki, son illərdə QSC-nin inzibati binasında müasir standartlar səviyyəsində əsaslı təmir işləri həyata keçirilib. Ölkə rəhbəri İlham Əliyevin tapşırığı əsasında “ASAN xidmət” mərkəzlərinin yaradılmadığı regionlarda vətəndaşların dövlət xidmətləri ilə təmin edilməsi üçün müasir texniki avadanlıqla təchiz olunan səyyar “ASAN qatar” konsepsiyası reallaşdırılıb. Bakı vaqon deposunda “ASAN qatar” sisteminin tətbiqi ilə bağlı xüsusi vaqonlar hazırlanıb.

Azərbaycanda yükdaşımanın səmərəli və keyfiyyətli olması üçün dəmir yolu xətlərinin yenidən qurulmasına, habelə onun saz vəziyyətdə saxlanılmasına mühüm önəm verilir. Prezident İlham Əliyevin 8 mart 2018-ci il tarixli “Bakı şəhərətrafı dəmir yolu xəttinin layihə-smeta sənədlərinin hazırlanması, əsaslı təmiri və tikintisi ilə bağlı tədbirlər haqqında” sərəncam imzalaması da bunun bariz ifadəsidir. “Azərbaycan Dəmir Yolları” QSC rəhbərliyi hazırda həmin sərəncama əsasən, dəmir yolları xəttinin əsaslı təmir olunmasını diqqət mərkəzində saxlayır, paytaxtətrafı dəmir yolu xəttinin elektrik təchizatı sisteminin əsaslı təmir edilməsini reallaşdırır.

Xatırladım ki, artıq xeyli vaxtdır ki, Abşeron yarımadasında mövcud dəmir yolu xətlərinin yenidən qurulması və dəmir yolu şəbəkəsinin təkmilləşdirilməsi, mövcud dəmir yolu xətlərinin reabilitasiyası və bərpası, elektrik təchizatı, rabitə, eyni zamanda, işarəvermə şəbəkəsinin əsaslı təmiri, yol kənarlarının mühafizə çəpəri ilə bağlanması, bəzi dəmir yolu keçidlərinin müxtəlif səviyyəli keçidlərlə əvəzlənməsi, stansiya binalarının yenidən qurulmasına başlanılıb.

Yeri gəlmişkən, son aylar ərzində Bakı-Sumqayıt-Bakı dairəvi yolunda elektrik təchizatı sisteminin əsaslı təmiri ilə bağlı bir sıra tədbirlər həyata keçirilib. Böyük Şor stansiyasının kontakt şəbəkəsi yenidən qurularaq əsaslı təmir olunub. İyirmi səkkiz ədəd dəmir-beton dayaq yenisi ilə əvəzlənib və kontakt şəbəkə həmin dayaqlara köçürülüb. Bununla yanaşı, uzunluğu 30 metr olan 4 ədəd rigel quraşdırılıb və kontakt şəbəkəsi bu rigellərin üzərinə köçürülərək nizamlanıb. Hazırda stansiyada işlər davam etdirilir.

Mayın 21-də dövlətimizin başçısı Sabunçu dəmir yolu vağzalı kompleksinin açılışında iştirak edib, yeni inşa edilən Bakı sərnişin – Sabunçu dəmir yolu xətti üzrə görülən işlərlə tanış olub.

Qeyd edim ki, Prezidentin 22 yanvar 2018-ci il tarixli sərəncamına əsasən, Bakı sərnişin-Sabunçu dəmir yolu yenidən inşa olunub. Layihənin tərkib hissəsi olan Sabunçu dəmir yolu vağzalı tamamilə yenidən qurulub.

Bu marşrut üzrə dəmir yolu xəttinin uzunluğu bir istiqamət üzrə 13,5 kilometrdir. Bakı sərnişin - Sabunçu dəmir yolu xətti üzərindəki Bakıxanov, Koroğlu, Keşlə və Nərimanov dayanacaqları tamamilə müasirləşdirilib.

Bütün bunlar son illərdə ölkəmizdə nəqliyyat infrastrukturunun davamlı inkişafı üzrə dövlət siyasətinin tərkib hissəsidir. Bu gün Azərbaycanda dəmir yolu infrastrukturunun yenilənməsi, beynəlxalq standartlara uyğunlaşdırılması Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü iqtisadi inkişaf strategiyasının məntiqi nəticəsidir. Bu strategiya Azərbaycanı Qərb ilə Şərq, Şimal ilə Cənub arasında ən mühüm nəqliyyat qovşağına çevirir.

Hazırda respublikanın digər dəmir yolu mənzillərində də əsaslı təmir işləri reallaşdırılır, kontakt şəbəkələr yenidən qurulur, yoldəyişən qurğular quraşdırılır.

Son vaxtlar dəmir yolunda ən müasir standartlara cavab verən texnologiyaların tətbiq olunması dövrü başlayıb. Enerji təchizatının sabit cərəyandan dəyişən cərəyana keçirilməsi, işarəvermə və rabitə sisteminin, lokomotiv və vaqon parklarının müasirləşdirilməsi üzrə avadanlıqların alınması və s. sahələrin beynəlxalq tələblər səviyyəsinə çatdırılması üzrə bir sıra mühüm layihələr həyata keçirilib.

İsveçrənin “Stadler Rail Group” şirkətindən “KİSS” markalı ikimərtəbəli elektrik qatarları 2015-ci il sentyabr ayının 12-də Bakı-Sumqayıt marşrutu ilə hərəkətə buraxılıb və qatarın yolasalma mərasimində cənab İlham Əliyev iştirak edib.

“Azərbaycan Dəmir Yolları”nda polad magistralların yeniləşməsi də diqqət mərkəzində saxlanılıb. Bakı-Böyük Kəsik, Bakı-Sumqayıt, Bakı-Sumqayıt-dairəvi, Cənub istiqamətlərində təxminən 1700 kilometr əsaslı təmir işləri görülüb. Əlbəttə ki, bunlar görülən işlərin hələ tam siyahısı deyil. Belə ki, dəmir yolunda islahatlar prosesi davam etməkdədir.

Gələn ilin ikinci yarısından sərnişinlər Bakı-Qəbələ sürət qatarından da istifadə edə biləcəklər. Artıq bu istiqamətdə intensiv iş gedir. Ləki stansiyasından başlayaraq 45 kilometrlik yolun yarısı artıq çəkilib. İlin sonuna torpaq yatağı işləri də tam başa çatdırılacaq. Sərnişinlər Qəbələyə 2,5-3 saata rahat və hər bir şəraiti olan vaqonlarla gedə biləcəklər.

Onu da vurğulayım ki, respublikamız beynəlxalq nəqliyyat dəhlizlərinin formalaşması prosesində də fəal iştirak edir. Belə ki, 2017-ci il oktyabrın 30-da istifadəyə verilən Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu çox böyük əhəmiyyət daşıyır, çünki Asiya və Avropanı Azərbaycan və digər tranzit ölkələr vasitəsilə ən qısa marşrutla birləşdirir. Bu yolla yüklər artıq daşınır və yükdaşımaların həcmi getdikcə artacaq.

Yeri gəlmişkən, keçən il dəmir yolu nəqliyyatı ilə 287 min ton yük daşınıb, 2017-ci ildə isə bu rəqəm 27 min ton olub. Cari il isə dəmir yolu xətti ilə 600 min tondan çox yük daşınması planlaşdırılır.

Xatırladım ki, Azərbaycanın və Gürcüstanın paytaxtlarını Türkiyənin qədim Qars şəhəri ilə birləşdirən və uzunluğu 826 kilometr olan BTQ dəmir yolu cari ildə yeni marşrut da təqdim edəcək. Başqa sözlə, bu marşrutla Bakı, habelə Türkiyənin Ankara və İstanbul şəhərləri arasında sərnişin daşınmasına başlanılacaq.

Asiya ilə Avropanı birləşdirən və Avrasiya məkanı üçün yeni yüksəliş layihəsi olan Bakı-Tbilisi-Qars dəmir yolu xətti Prezident İlham Əliyevin siyasi iradəsi sayəsində reallığa çevrilib. Qonşu Türkiyə və Gürcüstanla sıx əməkdaşlığın nəticəsi olan Bakı-Tbilisi-Qars layihəsi ölkələrimiz arasındakı əlaqələrin strateji təzahürünü də nümayiş etdirir. Bu yolla artıq yüklərin daşınması uğurla həyata keçirilir. Bununla da çox mühüm transmilli neft-qaz kəmərlərinə malik Azərbaycan bu strateji layihənin reallaşması ilə özünün nəinki regionda, bütünlükdə Avrasiya qitəsindəki əhəmiyyətini artırıb. Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin işə düşməsi Azərbaycanın dövlət müstəqilliyinin gücləndirilməsində, iqtisadi qüdrətinin artırılmasında yeni mühüm strateji amilə çevrilib və regionda sabitliyə, xalqlarımızın daha da yaxınlaşmasına və iqtisadi inkişafa böyük töhfədir.

Azərbaycanın hazırda önəm verdiyi layihələrdən biri də Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizidir. Bu layihənin icrası çərçivəsində Azərbaycan tərəfi öz üzərinə düşən vəzifələri yerinə yetirib. Artıq Astara stansiyasından İran İslam Respublikası dövlət sərhədinə qədər birxətli 8,3 kilometr dəmir yolunun çəkilişi və Astara çayı üzərindəki dəmir yolu körpüsünün tikintisi yekunlaşıb, sınaq qatarı sərhədi yeni tikilmiş körpü vasitəsilə keçib.

Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi tam gücü ilə fəaliyyətə başladıqdan sonra Avropa ölkələrinin, Rusiyanın, Orta Asiya və Qafqaz regionlarının Fars körfəzi və Hindistana çıxışına, Xəzəryanı ölkələrin Qara dəniz limanları ilə ticarət əlaqələrinin intensivləşdirilməsinə şərait yaradacaq. Bu beynəlxalq nəqliyyat dəhlizinin digər marşrutlarla müqayisədə əsas üstünlüyü tranzit məsafəsinin və tranzit vaxtının iki-üç dəfə az olmasıdır.

Cənub-Qərb Nəqliyyat Dəhlizinin fəaliyyətə başlaması istiqamətində görülən işlər də təqdirəlayiqdir. Bu dəhliz İran, Azərbaycan, Gürcüstan, Ukrayna vasitəsilə Hindistandan Avropaya və əks istiqamətdə yüklərin daşınmasında vaxt itkisini xeyli azaldır. İlkin hesablamalara görə, adıçəkilən dəhliz üzrə yükdaşımaları 7 gün ərzində həyata keçirmək mümkün olacaqdır.

“Azərbaycan Dəmir Yolları” QSC-nin rəhbərliyi dəmiryolçuların sosial-iqtisadi problemlərinin həllini də öz fəaliyyətinin əsas istiqamətlərindən biri hesab edir. İşçilərin sosial müdafiəsinin gücləndirilməsi, sağlamlıqlarının qorunması daim nəzarətdə saxlanılır. Mütəmadi olaraq onların şikayət və ərizələrinə baxılması, problemlərinin həlli yolları müzakirə edilir, mövcud problemlərin aradan qaldırılması üçün tədbirlər görülür. Dəmiryolçuların yeni mənzillərlə təmin edilməsi ənənəsi uğurla həyata keçirilir.

Sonda fikrimi yekunlaşdırıb deyə bilərəm ki, bu gün xalqımız cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə öz dövlətinə inam nümayiş etdirərək, ölkənin iqtisadi və müdafiə qüdrətini artırmaq üçün fədakarlıqla çalışır. Bu isə o deməkdir ki, Azərbaycan bundan sonrakı illərdə də öz uğurlu, dinamik inkişaf yolunu qətiyyətlə davam etdirəcək.



***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***